

**Sarıyev Tural İsmayıl oğlu**

Tural İsmayıl oğlu Sarıyev 1993-cü il mayın 10-da Tovuz rayonunun Cirdək kəndində anadan olub. 1999-2011-ci illərdə Tovuz rayonunun Hacılar kənd tam orta məktəbində təhsil alıb.

2011-2013-cü illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Füzulinin və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Tural Sarıyev oktyabrın 17-də Qubadlı döyüşləri zamanı şəhid olub.

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin Sərəncamları ilə əsgər Sarıyev Tural İsmayıl oğlu "Vətən uğrunda", “Hərbi xidmətlərə görə”, “Cəbrayılın azad olunmasına görə” medalları ilə təltif edilib.